

# TÜTÜNLƏ MÜBARİZƏ TƏDBİRLƏRİNİN EFFEKTİVLİYİNİN MİLLİ MONİTORİNQ SİSTEMİ:

## Əsas prinsiplər və tövsiyələr

# TÜTÜNLƏ MÜBARİZƏ TƏDBİRLƏRİNİN EFFEKTİVLİYİNİN MİLLİ MONİTORİNQ SİSTEMİ: ƏSAS PRİNSİPLƏR VƏ TÖVSİYƏLƏR

BAKI - 2019

# Mündəricat

**Ön söz** .......... **4**

**Tütündən istifadə və qarşısının alınması siyasətinin monitorinqi** .......... **5**

Monitorinq tütünə müvəffəqiyyətli nəzarətin əsasını təşkil edir. .......... 5

Monitorinq tütünlə mübarizə üzrə sübutlar bazasını möhkəmləndirir .......... 5

Profilaktik strategiyaların monitorinqi tütünçəkmənin qarşısının alınmasının əsasını təşkil edir .......... 5

Tütündən istifadənin monitorinqi əlçatandır .......... 6

Demoqrafik göstəricilərin və tendensiyaların monitorinqi .......... 6

Tütünün sağlamlığa təsirinin monitorinqi .......... 6

Tütünə nəzarət siyasətinin monitorinqi .......... 6

MPOWER tədbirlərinin monitorinqi üçün əsas suallar .......... 7

Monitorinqin müxtəlif səviyyədə olması .......... 8

Tütün növləri .......... 8

Tütün məmulatlarının ehtiyatları .......... 9

Qanunlara riayət olunmanın monitorinqi .......... 9

Tütün tüstüsünün təsirinin monitorinqinin əsas, geniş və qabaqcıl nümunələri .......... 9

Tütünün sosial və iqtisadi təsirləri .......... 10

Monitorinq tütünə nəzarəti dəstəkləyir .......... 10

Monitorinq qlobal tütün istehsalçılarının maraqlarını üzə çıxarır .......... 10

**Monitorinqin mexanizmləri** .......... **11**

Fərqli məqsədlər üçün müxtəlif alətlər .......... 11

Siyahıyaalma .......... 11

Sorğular .......... 11

Davamlı müşahidələr .......... 11

Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı .......... 11

Səhiyyənin məlumat (informasiya) və inzibati sistemləri .......... 11

Tütünə nəzarət siyasətinin monitorinqi üçün alətlər .......... 12

**Sorğunun növləri** .......... **13**

Tək bir risk faktoru sorğuları .......... 13

Çoxsaylı risk faktorları üzrə sağlamlıq sorğuları .......... 13

Sosial, iqtisadi və digər tədqiqatlar .......... 13

Məktəb əsaslı sorğular .......... 13

Effektiv monitorinq sistemlərinin xüsusiyyətləri: 14

Standartlaşdırılmış protokollar monitorinqi təkmilləşdirir 14

Standart sorğu vərəqələri 15

Qlobal Tütünə Nəzarət Sistemi (GTSS) 15

Tütünlə əlaqəli Sorğu Sualları (TQS) 15

Monitorinq tədbirlə nəticələnməlidir 15

Monitorinq cəhdlərini artırmaq 15

**Bir sıra ümumi problemlər 16**

Texniki potensial 16

Multisektoral öhdəlik 16

Məlumat mübadiləsi 16

Məlumatların istifadə edilməsi 16

Kommunikasiya strategiyası 17

Maliyyələşdirmə 17

Siyasi öhdəlik 17

**İstinad edilmiş mənbələr 18**

# Ön söz

Tütün vaxtından əvvəl ölüm, xəstəlik və əlillik hallarının qarşısı alına bilən əsas səbəbidir. Tütünçəkmə ürək xəstəlikləri və insult, ağciyər xərçəngi və xroniki obstruktiv ağciyər xəstəliyi kimi əsas qeyri-infeksion xəstəliklər yaradır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, tütündən istifadə edən insanların təxminən yarısı orta hesabla vaxtından 15 il əvvəl ölür. Bu gün tütün dünyada böyüklər arasında on nəfərdən birinin ölümünə səbəb olur (ildə səkkiz milyon) və səkkiz aparıcı ölüm səbəbinin altısı üçün risk amilidir. Tütün səbəbindən vaxtından əvvəl ölüm hallarının 80%-i aşağı və orta gəlirli ölkələrdə baş verir. Təcili tədbirlər görülməzsə, bu əsrin sonunadək tütün 1 milyarddan çox insanı məhv edə bilər. Tütün epidemiyası artıq səhiyyə problemi çərçivəsindən çıxaraq törətdiyi təhlükələrə görə qlobal miqyas almışdır. Bunu nəzərə alaraq, Azərbaycan Respublikası 2005-ci ildə "Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyasına qoşuldu. Bu Konvensiya tütün istehlakı nəticəsində ölüm hallarının azaldılmasına yönəldilən və bütün dünyada tütün epidemiyasına qarşı qlobal mübarizəni nəzərdə tutan ilk beynəlxalq sazişdir. Dünya ölkələri tərəfindən 2003-cü ildən etibarən imzalanan Konvensiya tütün məmulatlarının istehsalını, satışını və istifadəsini tənzimləyən bəşəriyyətin ilk beynəlxalq razılaşmasıdır. O, ictimai yerlərdə siqaret çəkməyi və tütün məmulatlarının hər hansı formada reklamını qadağan edir.

Gənclər arasında tütündən istifadənin Qlobal Tətqiqatı (GYTS), Məktəb İşçiləri arasında Qlobal Tədqiqat (GSPS), Tibb Tələbələri arasında Qlobal Tədqiqat (GHPSS) və Böyüklər arasında Tütündən İstifadənin Qlobal Tədqiqatı (GATS) vasitəsilə məlumatların toplanması üçün 1999-cu ildə Qlobal Tütünə Nəzarət Sistemi (GTSS) yaradılmışdır ki, bu da hərtərəfli milli tütünə nəzarət proqramlarının planlaşdırılması, həyata keçirilməsi və qiymətləndirilməsi, eləcə də "Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyasının əsas maddələrinə nəzarət etmək üçün ölkələrin potensialının gücləndirilməsində mühüm addım oldu. Çərçivə Konvensiyasının Tərəfləri tütün epidemiyasına qarşı mübarizəyə qoşularaq öz əhalisinin sağlamlığının qorunmasını öhdələrinə götürmüşlər. Bu məqsədlə ÜST 2008-ci ildə MPOWER adlı sübutlara əsaslanan altı tütünə nəzarət tədbirləri üzrə texniki paket hazırlamışdır ki, bu da tütündən istifadənin azaldılmasına və insanların həyatının xilas edilməsinə yönəldilir.

Ümumiyyətlə, insanların əksəriyyəti 18 yaşadək tütündən istifadə etməyə başlayır. Kiçik yaşlardan siqaret çəkmək tütünlə bağlı səbəblərdən ölüm riskini artırır və ölümün baş verəcəyi ehtimal olunan yaş dövrünü azaldır. Tütünçəkməyə daha erkən başlayan insanlar bu vərdişdən çətinliklə imtina edə bilirlər. Son zamanlar yaranan meyillər, uşaq və yeniyetmələr arasında tütünçəkmə hallarının artması tütünçəkməyə daha erkən yaşda başlanmasını göstərir. Buna görə də tütünçəkmənin yayılması, tütünlə əlaqəli media və reklam, ikincili tütün tüstüsünün təsirinə məruz qalma, tütün məmulatlarının əlçatanlığı və mövcudluğu, tütündən imtina, tütünlə bağlı qadağalara riayət olunması və digər məsələlərə dair məlumatın toplanması və yayılması ölkədə tütünlə mübarizə işinə yardım edə bilər.

Tütünlə mübarizə tədbirlərinin effektivliyi və monitorinqinin əsas məqsədi vətəndaşların sağlamlığının ətraf mühitdəki tütün tüstüsünün təsirindən və tütündən istifadənin nəticələrindən qorunmasından ibarətdir. Bu sənəd Azərbaycan Respublikasının tütünlə əlaqəli qanunvericiliyinə daha məqsədyönlü riayət olunması üçün qanunların tətbiqinin qiymətləndirilməsində sübutlara əsaslanan beynəlxalq təcrübəni əks etdirir.

Tütün epidemiyası təhlükəsi hələ də mövcuddur. Lakin bu təhlükənin qarşısının alınması üçün ölkəmizin tütünlə əlaqəli qanunvericiliyinə tam və qeyd-şərtsiz riayət edilməli, bu işin təşkilinə məsuliyyətlə yanaşılmalıdır. İnanıram ki, biz birgə səylərimizlə tütün epidemiyasına effektiv nəzarət edə, hətta onu geri döndərə bilərik.

Təqdim etdiyimiz bu sənəd Vərəm və Ağciyər Xəstəliklərinə qarşı Beynəlxalq İttifaq (The Union) tərəfindən ayırılmış vəsait hesabına həyata keçirilən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) "Azərbaycanda multisektoral tütünlə mübarizə mexanizmlərinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində, İSİM-in İctimai sağlamlıq şöbəsinin müdiri Tofiq Musayevin rəhbərliyi altında 2019-cu ildə hazırlanmışdır.

**Qəhrəman Haqverdiyev**
*Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin*
*İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru*

**MONİTORİNQ TÜTÜNƏ MÜVƏFFƏQİYYƏTLİ NƏZARƏTİN ƏSASINI TƏŞKİL EDİR.**

## Tütünə nəzarətin monitorinqi:

- **tütündən istifadə göstəricilərinin monitorinqi (çox vaxt tütündən istifadə nümunələri və tendensiyaların nəzarəti kimi başa düşülür);**
- **tütün tüstüsünə məruz qalmanın monitorinqi;**
- **tütündən istifadənin və ya tütün tüstüsünə məruz qalmanın qarşısını almaq üçün nəzərdə tutulmuş monitorinq siyasətləri.**

## MONİTORİNQ TÜTÜNLƏ MÜBARİZƏ ÜZRƏ SÜBUTLAR BAZASINI MÖHKƏMLƏNDİRİR

Tütün dünyada qarşısı alına bilinən əsas ölüm səbəblərindən biridir. Tütün istifadəsi və tütün tüstüsünə məruz qalma sistemləri hər hansı bir tütünə nəzarət proqramının əsas komponentləridir və tütün epidemiyasını anlamaq və aradan qaldırmaq üçün vacibdir.

Tütündən istifadə və tütün tüstüsünə məruz qalma nümunələri və tendensiyalarını anlamaq qərar qəbul edən şəxslərə bu siyasətin həyata keçirilməsi və dəstəklənməsi üçün daha güclü, daha hədəflənmiş tütünə nəzarət strategiyalarının hazırlanmasına və müvafiq resursların ayrılmasına kömək edir.

Maksimal təsirə nail olmaq məqsədilə, tütündən istifadə və tütün tüstüsünə məruz qalmanın monitorinqi resurslar imkan verdiyi qədər geniş və hərtərəfli olmalıdır və tütün istehlakının bütün növlərini əhatə etməlidir.

Digər tədqiqat növləri ilə bir araya gəldikdə, qərar qəbul edən şəxslər və həkimlər tərəfindən tütün epidemiyasının əhalinin sağlamlığına, iqtisadi rifahına, gender bərabərliyinə və ətraf mühitə göstərdiyi təsirinin anlamasına kömək edə bilər.

Adətən, tütündən istifadə sosial-iqtisadi və demoqrafik xüsusiyyətlərə görə fərqlənir. Tütündən istifadə nümunələri fərdi əhali qrupları arasındakı ehtiyaclar daha yaxşı aydınlaşdırıldıqdan sonra müdaxilələrin formalaşmasına kömək edəcəkdir.

Qeyd etmək vacibdir ki, tütündən istifadənin və tütün tüstüsünə məruz qalmanın effektiv monitorinqi davam edən bir proses olmalıdır və birdəfəlik fəaliyyət kimi qəbul edilməməlidir. Tendensiyalar zamanla dəyişir və monitorinq yaxşı planlaşdırılmış və mütəmadi aparılan uzunmüddətli öhdəlik kimi başa düşülməlidir.

## PROFİLAKTİK STRATEGİYALARIN MONİTORİNQİ TÜTÜNÇƏKMƏNİN QARŞISININ ALINMASININ ƏSASINI TƏŞKİL EDİR

Tütünə nəzarət strategiyalarının həyata keçirilməsinin monitorinqi və səmərəliliyinin qiymətləndirilməsi iki eyni əhəmiyyətli fəaliyyətdir – yalnız qiymətləndirilən fəaliyyət işlənilə və təkmilləşdirilə bilər. Effektiv monitorinq olmadan tütünə nəzarət proqramları müdaxilələrin təsirini qiymətləndirmək və ya təkmilləşdirməkdə çətinlik çəkəcək.

Ölkələr tütünə nəzarət siyasətinin, eləcə də yeni və ya mövcud siyasətə mane ola biləcək tütün sənayesinin hər hansı bir fəaliyyətinin həyata keçirilməsinə nəzarət etməlidirlər. Belə monitorinq dövlət qurumları və tütün sənayesi arasında sədlərin səmərəliliyini əhatə etməlidir.

## TÜTÜNDƏN İSTİFADƏNİN MONİTORİNQİ ƏLÇATANDIR

Hətta resurs ehtiyatları məhdud olduqda belə, tütünə nəzarət proqramlarını təkmilləşdirmək üçün minimum məlumatların yaradılmasına imkan verən məhdud sayda əsas monitorinq fəaliyyətinə diqqət yetirilməlidir. Hökumətin ictimai səhiyyə göstəricilərinin monitorinqinin aparılmasında böyük rolu vardır, həmin məlumatları hazırlamaq və təhlil etmək məsuliyyət tələb edir. Qeyri-kommersiya sektoru, akademik qurumlar, tütünə nəzarət üzrə təşviqat təşkilatları və digər maraqlı tərəflər artıq bu faydalı təhlilin bir hissəsini təşkil edə bilər. Mövcud məlumat mənbələrinin istifadəsi maksimum səviyyədə olmalıdır ki, tütünə nəzarət göstəriciləri birləşdirilsin və tütündən istifadə nümunələrinə və tütün tüstüsünə məruz qalmaya dair tam baxış əldə etmək üçün hər hansı boşluqlar doldurulsun.

### Demoqrafik göstəricilərin və tendensiyaların monitorinqi

*Aşağıdakı göstəriciləri izləmək üçün əhali arasında müxtəlif növ sorğulardan istifadə edilir:*

- **istifadə olunan tütün məmulatları;**
- **kimlər istifadə edir;**
- **istifadə nümunələri;**
- **bu nümunələr zamanla necə dəyişir.**

Həmçinin, tütün tüstüsünə məruz qalma tezliyini və intensivliyini izləmək üçün sorğulardan istifadə edilir. Bu sorğular ayrıca tütün araşdırmaları və ya tütün məsələləri də daxil olduğu milli maraqları əhatə edən bir çox sağlamlıq məsələləri üzrə sorğular ola bilər. Qlobal Tütünə Nəzarət Sistemi (QTNS) və əsas suallar toplumu (araşdırmalar üçün tütünə aid suallar) böyüklər və ya gənclərin davranışlarını, tütünün istifadəsi ilə bağlı məlumat və münasibətlərini tədqiq edən hər hansı bir ölkə və ya qurum tərəfindən istifadə edilə biləcək və təsdiqlənmiş sualların nümunələrini təqdim edir.

## TÜTÜNÜN SAĞLAMLIĞA TƏSİRİNİN MONİTORİNQİ

Sağlamlıq göstəriciləri və ölüm hallarının qeydiyyat məlumatlarının epidemioloji tədqiqatı və xülasəsi tütündən istifadə və tütün tüstüsünə məruz qalma ilə əlaqəli xəstəlik və ölüm yükünü müəyyənləşdirməyə kömək edə bilər. Bu sübutlar tütündən istifadənin yaratdığı ciddi zərərləri nəzərə alaraq, tütünə nəzarət siyasətini hazırlamaq və həyata keçirmək üçün tədbirlərin sürətləndirilməsi zərurətinin əks etdirilməsində əvəzolunmazdır.

## TÜTÜNƏ NƏZARƏT SİYASƏTİNİN MONİTORİNQİ

Tütünə nəzarət siyasətinin monitorinqi tütünçəkmə ilə mübarizə strategiyasının və ictimai səhiyyə tədbirlərinin daha yaxşı planlaşdırılması və həyata keçirilməsi üçün zəruridir. Tütünə qarşı mübarizə haqqında Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Çərçivə Konvensiyasında (TMÇK) olan tütünə tələbatın azaldılması tədbirləri üzərində qurulmuş MPOWER adlı müdaxilə tədbirləri paketinə daxil edilmiş bir sıra səmərəli siyasət müdaxilələri mövcuddur. ÜST-nin MPOWER paketindəki hər bir müdaxilənin təsiri qiymətləndirilməli və effektli təsir göstərmək üçün daha da gücləndirilməsinə ehtiyac olan siyasət sahələri müəyyən etməlidirlər.

Yeni tütünə nəzarət siyasətinin aparılmasına mane ola biləcək amillər, məsələn, qanunvericilikdə olan boşluqlar və ya tütün sənayesinin müdaxiləsi kimi maneələr monitorin vasitəsilə aradan qaldırıldıqdan sonra yeni tütünə nəzarət siyasətinin təsiri daha effektiv ola bilər. Daha sonra bu maneələri azaltmaq və siyasətin təsirini tez və effektiv şəkildə yaxşılaşdırmaq üçün hədəfli addımlar atılmalıdır. Müntəzəm monitorinq tərəqqinin ölçülməsinə, müəyyən müddətdə tütünlə mübarizənin qiymətləndirilməsinə imkan verir. Tələbatı azaldan siyasətin monitorinqinə əhalinin tütün tüstüsünə məruz qalmaması; tütünün təhlükələri barədə xəbərdarlıq (tütün məmulatları üzərində xəbərdarlıq etiketləri və tütün əleyhinə kütləvi informasiya vasitələri ilə kampaniyalar); tütünçəkmədən imtina xidmətləri ilə təmin etmək; tütün məmulatlarının reklamına, satışın stimullaşdırılmasına və sponsorluğuna qadağa qoymaq və tütün vergilərinin artırılması kimi səylər daxil edilməlidir.

# MPOWER tədbirlərinin monitorinqi üçün əsas suallar

| MPOWER | Göstərici və onun təsviri |
|---|---|
| **MONITOR:**<br>Tütün istehlakının və profilaktik strategiyaların monitorinqi | **Hazırda tütündən istifadə edənlər**<br>Hazırda hər hansı bir tütün məmulatlarından (tüstülü və tüstüsüz) istifadə edən respondentlərin faiz nisbəti<br>**Hazırda tütün çəkənlər**<br>Hazırda hər hansı bir tütün məmulatlarını çəkən respondentlərin faiz nisbəti<br>**Hər gün tütün çəkənlər**<br>Hazırda hər gün tütün məmulatlarından istifadə edən respondentlərin faiz nisbəti<br>**Hazırda tüstüsüz tütün məmulatları istifadəçiləri**<br>Hazırda tüstüsüz tütün məmulatlarından istifadə edən respondentlərin faiz nisbəti<br>**Hər gün tüstüsüz tütün məmulatları istifadəçiləri.**<br>Hazırda hər gün tüstüsüz tütün məmulatlarından istifadə edən respondentlərin faiz nisbəti |
| **PROTECT:**<br>İnsanların tütün tüstüsündən mühafizəsi | **Evdə ikincili tütün tüstüsünə məruz qalma**<br>Evin içərisində tütün çəkildiyini bildirən respondentlərin faiz nisbəti<br>**İşdə ikincili tütün tüstüsünə məruz qalma**<br>Son 30 gün ərzində qapalı iş yerində tütün tüstüsünə məruz qalan işçilərin faiz nisbəti |
| **OFFER:**<br>Tütündən imtina üzrə kömək təklifi | **Son 12 ayda tütünçəkmədən imtinaya cəhd edənlər**<br>Son 12 ay ərzində hazırda tütündən istifadə edənlər arasında bu vərdişi tərgitmək istəyənlərin faiz nisbəti<br><br>**Səhiyyə mütəxəssisləri tərəfindən tütünçəkmədən imtinaya dair məsləhətlər**<br>Son 12 ay ərzində həkimə və ya səhiyyə mütəxəssisinə müraciət edən tütün istehlakçılarının tütündən istifadəni dayandırmağa dair tövsiyə alanların faiz nisbəti |
| **WARN:**<br>Tütünlə bağlı təhlükələrə dair xəbərdarlıq | **Qəzet və ya jurnallar vasitəsilə tütün əleyhinə olan informasiyalarla məlumatlandırılma**<br>Son 30 gün ərzində qəzet və ya jurnallarda tütündən istifadənin təhlükəsi barədə və ya tütündən imtinaya çağıran məlumatlar görən respondentlərin faiz nisbəti<br>**Televiziya vasitəsilə tütün əleyhinə olan informasiyalarla məlumatlandırılma**<br>Son 30 gün ərzində televiziyada tütündən istifadənin təhlükəsi barədə və ya tütündən imtinaya çağıran məlumatlar görən respondentlərin faiz nisbəti |

| MPOWER | Göstərici və onun təsviri |
|---|---|
| **WARN:**<br>Tütünlə bağlı təhlükələrə dair xəbərdarlıq | **Tütün qutuları üzərində sağlamlığa zərər barədə xəbərdarlıq etiketlərini görmək**<br>Son 30 gün ərzində tütün qutuları üzərində sağlamlığa zərər barədə xəbərdarlıq etiketlərini görən tütün istifadəçilərinin faiz nisbəti<br>**Tütün qutuları üzərində sağlamlığa zərər barədə xəbərdarlıq etiketlərindən təsirlənərək tütünçəkməni tərgitmək istəyənlər**<br>Son 30 gün ərzində tütün qutuları üzərində sağlamlığa zərər barədə xəbərdarlıq etiketlərindən təsirlənərək tütünçəkməni tərgitmək istəyənlərin faiz nisbəti |
| **ENFORCE:**<br>Tütünün reklamına, satışının stimullaşdırılmasına və sponsorluğuna qoyulmuş qadağaların tətbiqi | **Mağazalarda tütün məmulatlarının reklamı barədə məlumatlılıq**<br>Son 30 gün ərzində tütün məhsullarının satıldığı mağazalarda tütün məmulatlarını təbliğ edən reklam və ya əlamətləri görən respondentlərin faiz nisbəti<br><br>**Xüsusi tütün reklam növləri barədə məlumatlılıq**<br>Son 30 gün ərzində tütün məmulatlarının pulsuz nümunələri, tütün məmulatlarıını adı satış etiketlərində, tütün məhsulları üçün kuponlar, tütün məhsullarını alarkən pulsuz hədiyyələr və ya endirimlər, geyim və ya digər məhsullarda tütün məmulatlarının markası və ya loqosu, poştla tütün məhsullarının reklamının göndərilməsini müşahidə edən respondentlərin faiz nisbəti |
| **RAISE:**<br>Tütün məmulatlarına qoyulan vergilərin artırılması | **İstehsal edilən tütün məmulatlarının qiyməti**<br>İstehsal edilən tütün məmulatlarının qutusuna sərf edilən orta məbləğ<br><br>**Tütün məhsullarının əlçatanlığı**<br>Adambaşına düşən ümumi daxili məhsulun (ÜDM) faiz nisbəti ilə istehsal edilən tütün məmulatlarının 100 ədədinin ortalama dəyəri |

## MONİTORİNQİN MÜXTƏLİF SƏVİYYƏDƏ OLMASI

Bütün ölkələrdə tütündən istifadənin və tütün tüstüsünə məruz qalmanın miqyası, tütündən istifadənin təsiri, tütünlə mübarizə siyasətinin təsirinin vəziyyəti və bu müdaxilələr üzrə irəliləyişləri ilə bağlı monitorinqə böyük maraq vardır. Bu, müxtəlif səviyyələrdə edilə bilər – əsas fəaliyyətlərdən genişləndirilmişmiş və ya qabaqcıl fəaliyyətlərə qədər. Bu səviyyələr onların əhatə dairəsi, tezliyi və xərcləri ilə fərqlənir. Hərtərəfli monitorinq səyləri tütünlə mübarizə sahəsində əsaslı sübutlar verirsə də, monitorinqin dəyəri və mürəkkəbliyi, çox vaxt müntəzəm həyata keçirildiyi zaman əldə edilə biləcək nailiyyətləri məhdudlaşdıra bilir.

## Tütün növləri

*Tütünün müxtəlif formalarından istifadə edilir:*

- **siqaret və tütünün digər çəkilən növləri (məsələn, siqarlar, tənbəki, bidi, su qəlyanı)**
- **çeynənilən və iylənilən tüstüsüz tütün məmulatları.**

İstehlak strukturunu düzgün başa düşmək üçün tütünçəkmənin yayılmasını ölçən tədqiqatlar istehlak səviyyəsi (tütünün nə qədər və hansı tezliklə istifadə edildiyini) və istifadə edilən müxtəlif növ tütün məhsulları (o cümlədən əvəzləyici və yaranan məhsullardan) ilə bağlı ətraflı məlumat əldə edilə bilər. Müəyyən məhsul növlərinə və ya istehlakın səviyyəsi və tezliyinə dair məsələləri həll etmək üçün müxtəlif tütünə nəzarət strategiyalarına ehtiyac yarana bilər.

## TÜTÜN MƏMULATLARININ EHTİYATLARI

Tütün məmulatları daim təzələnir. Son on il ərzində dünyada yeni tütün məmulatları və məhsul növləri yaranıb. Bu, qismən istehsalçılar tərəfindən tütün məmulatlarının məzmunu və dizayn xüsusiyyətləri müntəzəm olaraq daha cəlbedici və daha çox asılılıq yaratmaq üçün dəyişdirilmişdir. Kateqoriya və ya qiymət diapazonunda təsnifləşdirməyə imkan vermək məqsədilə məhsulların daimi yenilənməsi gedir. Bu da yeni istifadəçi qruplarını cəlb edərək və ya imtina etmək istəyənləri "aşağı risk" markalı məhsullar seçmək cəhdində təşviq edərək tənzimləyici orqanlarının diqqətini daha az cəlb edir, ya da aşağı dərəcədə vergi ilə əhatə olunur. Yeni məhsulların hansı növləri satıldığını, mövcud məhsullardan nə dərəcədə fərqləndiyini və hər hansı bir yenidənqurmanın potensial məqsədlərini başa düşmək üçün məhsulun ehtiyatlarını izləmək lazımdır.

## QANUNLARA RİAYƏT OLUNMANIN MONİTORİNQİ

Ölkənin tütünə nəzarət qanunlarına və qaydalarına riayət olunmanın monitorinqi birbaşa yoxlamalar vasitəsilə həyata keçirilə bilər. Bunlara tütünçəkmə qadağan olunan yerlərdə (iş yerləri və qapalı ictimai ərazilərdə) qaydalara riayət olunmanın yoxlanılması daxildir; pərakəndə satış yerlərində tütün məmulatlarının reklam olunmasının və yetkinlik yaşına çatmayanlara satışının; çap və media KİV-lərində reklam, satışın stimullaşdırılması və marketinq qadağalarına riayət olunmanın monitorinqi aparılmalıdır. Bu iş üçün xüsusi ayrılmış resurslar sayəsində riayət olunma monitorinqi tez-tez aparıla bilər və çox sayda yer və yurisdiksiyanı əhatə edə bilər. Resurslar az olduqda, seçmə üsulları ümumi riayət olunmanın reprezentativ xülasəsini təmin edir. Əlavə yanaşmasına rəsmi hökumət sənədlərindən asanlıqla əldə edilə bilən məlumat mənbələrinin müəyyən edilməsi və əldə olunması aiddir.

### Tütün tüstüsünün təsirinin monitorinqinin əsas, geniş və qabaqcıl nümunələri

| ƏSAS | GENİŞ | QABAQCIL |
|---|---|---|
| **Birbaşa müşahidə**<br><br>Tüstüdən azad ictimai yerlərin və iş yerlərinin yoxlanılması | **Havadakı nikotin səviyyəsinin ölçülməsi**<br>Havada olan nikotin səviyyəsinin obyektiv təyin edilməsi məqsədilə reprezentativ sayda ictimai yerlərdə detector monitorlarının istifadəsi | **Kotinin səviyyəsinin ölçülməsi**<br><br>Kotikin tüpürcək, sidik və qan nümunələrində ölçülməsi |
| **Özünü ifşa edən sorğu vərəqələri**<br><br>Bunlara milli və ya qeyri-milli tədqiqatlarda ikincili tütünçəkməyə aid suallar daxildir. | **Xüsusi maddələrin ölçülməsi**<br><br>Xüsusi maddələrin ölçülməsi ikincili tütün tüstüsünə məruz qalma səviyyəsinin göstəricisi ola bilər. | |

*Bütün ölkələr əsas monitorinq tədbirlərini həyata keçirməlidirlər və bunlar yaxşı qurulduqdan sonra resursların mövcudluğuna əsaslanaraq geniş və qabaqcıl tədbirlər tətbiq edə bilər.*

## TÜTÜNÜN SOSİAL VƏ İQTİSADİ TƏSİRLƏRİ

Sağlamlıq nəticələri qərar qəbul edən şəxslər və tərəfdaşlar üçün maraq sahəsidir, belə ki, adətən ölçülən göstəricilərə ölüm halları və tütünlə bağlı xəstəliklərə yönəldilən fərdi və ya ictimai səhiyyə xərcləri daxil edilir. Bununla yanaşı, fərdi və ictimai səhiyyə təsirinə əlavə olaraq, tütün epidemiyası cəmiyyətə əhəmiyyətli dərəcədə qeyri-sağlamlıqla bağlı təsir göstərir. Monitorinq və tədqiqatların faydalandıqları mövzulara tütün epidemiyasının ailələrə və ev təsərrüfatlarına göstərdiyi sosial və iqtisadi təsirlər (məsələn, digər mallara nisbətən tütünə daha çox xərclənən vəsait, tütünlə əlaqəli xəstəlik və vaxtından əvvəl ölüm nəticəsində yaranan tibbi xərclər və gəlir itkisi), mədəni norma və dəyərlərində tütündən azad sahələr, tütün becərilməsinin ətraf mühitə təsiri, tütündən istifadə və tullantılar kimi tütün siyasətinin təsiri daxildir. Ölkənin maraq dairəsində olan bütün potensial göstəricilərin müəyyənləşdirilməsi məlumatların mümkün qədər erkən toplanılmasına və həyata keçirilməsinə əsaslanan siyasətlərin reallaşdırılmasına kömək edəcəkdir.

## MONİTORİNQ TÜTÜNƏ NƏZARƏTİ DƏSTƏKLƏYİR

Geniş ictimai dəstəyi cəlb edən tütünə nəzarət siyasəti uğurlu ola bilər. Tütündən istifadə edənlərin və etməyənlərin düşüncələrinin araşdırılması, spesifik tütünə nəzarət tədbirlərinə tərəf olan və ya onlara qarşı çıxan dəstək səviyyəsini aşkarlamağa kömək edə bilər. Nisbətən populyar olmayan tədbirlərin əhali tərəfindən dəstəklənməsi məqsədilə ya dəyişdirilməli, ya da daha yaxşı təşviqat və kommunikasiya strategiyaları ilə əhatə olunmalıdır. Mövcud və keçmiş tütünçəkənlərdən tütünə nəzarət tədbirlərinin davranışlarına, xüsusilə onların tütün çəkməni tərgitmək cəhdlərinə necə təsir etdiyini əhatə edən sorğular, eləcə də faktiki davranış dəyişikliyinə gətirib çıxaran siyasətin mümkün uğurunu proqnozlaşdırmağa kömək edir. Bundan əlavə, sorğuya cavab verən əhali arasında səhiyyə məsələləri ilə bağlı məlumatlılığı artıra, eyni məsələyə dair təkrar sorğularla isə gücləndirə bilər.

## MONİTORİNQ QLOBAL TÜTÜN İSTEHSALÇILARININ MARAQLARINI ÜZƏ ÇIXARIR

Qlobal tütün istehsalçılarının maraqları ictimai səhiyyə siyasətinin maraqları ilə uzlaşmır. Tütün istehsalçıları tütünə nəzarət siyasətlərini sarsıtmaq və ya zəiflətmək üçün çoxsaylı müdaxilə formalarından istifadə edir. Bunlara: siyasi və qanunvericilik prosesləri ələ keçirmək üçün manevr etmək, etibarlı görünüş yaratmaq üçün ictimai rəy formalaşdırmaq, ön qruplar vasitəsilə dəstək yaratmaq, elmi sübütları etibardan salmaq və məhkəmələr vasitəsilə hökumətə hədə-qorxu gəlmək. Effektiv tütünə nəzarət siyasətinə təsir etməyə cəhd edən tütün sənayesinin sistematik monitorinqi, həmçinin hökümət daxilində və hökümətlər arası məlumat mübadiləsi, eləcə də maraqlı tərəflər arasında məlumatlılığının artırılması və tütün sənayesi tərəfindən yaradılan yanlış məlumatlara qarşı təqdim edilən sübutlar ictimai sağlamlığı qorumağa xidmət edir.

## FƏRQLİ MƏQSƏDLƏR ÜÇÜN MÜXTƏLİF ALƏTLƏR

Tütündən istifadə xəstəliklərin və vaxtından əvvəl ölümün əsas risk faktorlarından biri olduğu üçün tütünün monitorinq tədbirləri səhiyyə sisteminin milli və yerli məlumatlarına inteqrasiya olunmalıdır. Ən yüksək dövlət səviyyəsində qərar verən şəxslər sübutların toplanmasının vacibliyindən və bunun praktiki nöqteyi nəzərdən nəticələrindən məlumatlı olmalıdırlar. Buna monitorinq tədbirlərinin kifayət qədər siyasi dəstəklə təmin edilməsi, həmçinin, müvafiq tədbirlərin görülməsi üçün toplanılan məlumatların istifadə olunmasının təmin edilməsi daxildir.

Ölkələr tütünlə mübarizə sahəsində prioritetlərinin müəyyən edilməsi və mövcud sistemlərin onları necə dəstəkləməsi, daha sonra isə hər hansı boşluqların aradan qaldırılması üçün investisiyalar yolu ilə monitorinq və nəzarət üzrə öz imkanlarını qiymətləndirməlidirlər.

Bir çox nəzarət metodları hərtərəfli və etibarlı monitorinq sisteminin təməlini qoya bilər və onlar effektivliyin artırılması və ümumi faydanın, keyfiyyətin və dəqiqliyin təkmilləşdirilməsi üçün əlaqələndirilməlidirlər.

## Yanaşmalara daxildir:

### SİYAHIYAALMA

Adətən, hökumət və ya onların qurumları tərəfindən aparılan müntəzəm, rəsmi siyahıyaalma əhali barədə sistemli məlumat verir. Siyahıyaalmanın bahalı olmasına baxmayaraq, bir çox ölkələr onları vaxtaşırı aparır və məlumatların saxlanmasını dəstəkləyirlər.

### SORĞULAR

Ümumi əhali arasında reprezentativ seçmə yolu ilə aparılan sorğular müəyyən vaxt ərzində sağlamlıq statusunu, davranışı, münasibəti və ya müdaxilə təsirlərini eyni zamanda toplayır. Sorğunun eyni suallar və metodlardan istifadə edərək təkrarlanması vaxtaşırı nəzarət edilməsinə imkan yaradır.

### DAVAMLI MÜŞAHİDƏLƏR

Bu növ müşahidə tədqiqatları uzun vaxt ərzində, çox vaxt bir sıra onilliklər və ya bir ömür boyu maraq doğuran eyni (adətən, məhdud) insan qruplarının və mövzuların təkrar müşahidəsindən ibarətdir.

### VƏTƏNDAŞLIQ VƏZİYYƏTİ AKTLARININ DÖVLƏT QEYDİYYATI

Tütünçəkmənin səbəb olduğu ölüm hallarını qiymətləndirmək üçün vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı və əhalinin təbii artımı statistikası mövcud olmalıdır. Bu halda bütün ölüm hallarının səbəblərinin qeydiyyatını aparmaq və tütündən istifadə, o cümlədən passiv tütünçəkmə ilə bağlı ölüm hallarını hesablamağa imkan yaradır.

### SƏHİYYƏNİN MƏLUMAT (İNFORMASİYA) VƏ İNZİBATİ SİSTEMLƏRİ

Əsas məqsədi qiymətləndirmə, xəstəlik tarixinin aparılması və ya digər inzibati funksiya olan mövcud inzibati sistemlərdəki məlumat (informasiya) tütün barədə ikincili nəlumat mənbəyi ola bilər. Həmçinin elektron tibbi müayinə kartları da tütünlə bağlı problemlərlə dair məlumatların toplanılmasında istifadə oluna bilər. Tütündən istifadə ilə bağlı, artıq digər məqsədlər üçün (məsələn, şəxsin dövlət tibb müəssisəsində qeydiyyatı, tibbi müayinə kartların məxfi məlumatları, tibbi sığorta məlumatları, tütün məmulatlarının ixracı və aksiz verginin yığılması) toplanılmış məlumatlar hədəf nəzarət sistemlərindəki məlumatlara vacib əlavə kimi istifadə oluna bilər.

# TÜTÜNƏ NƏZARƏT SİYASƏTİNİN MONİTORİNQİ ÜÇÜN ALƏTLƏR

Tütünə nəzarət siyasətinin monitorinqi mövcud siyasətin daha yaxşı praktika meyarlarına (məsələn, ÜST-nin TMÇK tələbləri və tütünlə mübarizə üzrə siyasətin rəhbər prinsiplərinin) uyğunluğunun qiymətləndirilməsi, mövcud siyasət və qanunvericilikdə potensial boşluqların müəyyən edilməsi və təkmilləşdirilməsi üçün sahələrin müəyyənləşdirməsi də daxil olmaqla, bir sıra tədbirləri özündə cəmləyə bilər. Tütünlə mübarizə üzrə siyasətin monitorinqi üçün effektli alət aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

- **Tütünə nəzarət üzrə bütün uyğun siyasətləri əhatə etməli və yeni siyasətləri daxil etmək üçün mütəmadi olaraq yenilənməlidir.**

- **Siyasətin mövcud yüksək praktik standartlara uyğunluğu qiymətləndirilməlidir.**

- **Siyasət müdaxilələrinin tətbiqinin dərəcəsi daxil edilməlidir.**

- **Milli səviyyədə, eləcə də müvafiq submilli yurisdiksiyalar səviyyəsində siyasəti əhatə etməlidir.**

- **Tarixi məlumatları saxlamaq üçün hər hansı dəyişikliklər edildiklə və ya ən azı qısa, mütəmadi müddət ərzində yenilənməlidir.**

- **Tütünlə mübarizə siyasətində dəyişikliklərlə tütünçəkmənin yayılması və digər təsir göstəricilərində dəyişikliklər arasındakı əlaqəni təmin etmək məqsədilə (müvafiq olduğu hallarda) kifayət qədər uzun dövrü əhatə etməlidir.**

## TƏK BİR RİSK FAKTORU SORĞULARI

Gənclər arasında Tütündən İstifadənin Qlobal Tədqiqatı (GYTS) və Böyüklər arasında Tütündən İstifadənin Qlobal Tədqiqatı (GATS) daxildir. GYTS gənclər arasında tütündən istifadənin sistemli monitorinqinin qlobal standartıdır. Bu tədqiqat bütün ölkələrə aid standart, sistemli və ardıcıl protokollar üzrə ölkələr daxili və onların hüdudlarından kənarda müqayisəli məlumatların əldə olunmasına imkan yaradan 13-15 yaşlı yeniyetmələr arasında aparılan milli reprezentativ məktəb əsaslı sorğudur. 1999-cu ildən başlayaraq GYTS tədqiqatı 173 ölkədə həyata keçirilmiş və 106 ölkədə (o cümlədən Azərbaycanda iki dəfə) ən azı bir dəfə təkrar aparılmışdır. GATS böyüklərin tütündən istifadəsinə dair sistemli monitorinqin qlobal standartını təmin edən 15 yaşdan yuxarı olan əhali arasında keçirilən milli representativ ev təsərrüfatı sorğusudur. Bu tədqiqat bütün ölkələrə aid standart, sistemli və ardıcıl protokollar üzrə ölkələr daxili və onların hüdudlarından kənarda müqayisəli məlumatların əldə olunmasına imkan yaradır. GATS sorğusu 2008-ci ildən başlayaraq 33 ölkədə həyata keçirilmiş və 11 ölkədə təkrar aparılmışdır.

## ÇOXSAYLI RİSK FAKTORLARI ÜZRƏ SAĞLAMLIQ SORĞULARI

Çoxsaylı risk faktorları üzrə sağlamlıq sorğuları tütündən istifadənin daha geniş sağlamlıq statusu və sağlamlıqla bağlı digər davranış formaları kontekstində təsir və ya əlaqəli faktorları qiymətləndirməyə imkan verir. Geniş spektrli sağlamlıq göstəricilərinin statusunu qiymətləndirən milli sağlamlıq sorğuları artıq tütünlə bağlı bir sıra məsələləri özündə birləşdirə bilər. ÜST-nin STEPS metodologiyası əsasında aparılan tədqiqat qeyri-infeksion xəstəliklərin (QİX) risk amilləri üzrə məlumatların toplanılması, təhlili və yayılması üçün sadə standartlaşdırılmış üsuldur. STEPS ölkələrə xəstəliklərin əsas ağırlaşmalarını təyin edən QİX-in müəyyən olunmuş risk faktorları üzrə əsas məlumatların əldə olunmasına fokuslanan yanaşma vasitəsi ilə nəzarət potensialının yaradılması və gücləndirilməsi üçün nəzərdə tutulub. Hər bir ölkəyə əsas göstəriciləri və risk faktorlarını genişləndirməyə və yerli, yaxud regional maraqlarla bağlı əlavə modullarını daxil etmək üçün bu tədqiqat kifayət qədər əhatəlidir. 2003-cü ildən başlayaraq 125 ölkə (o cümlədən Azərbaycanda iki dəfə) və ərazilərdə STEPS tətbiq etmişdir. 2013-cü ildə ÜST-nin STEPS sorğusu STEPS alətlərinə Tütünlə əlaqəli Sorğu Suallarının (TQS) bütün göstəricilərinə dair məlumatların əldə olunmasına imkan yaratmaq məqsədilə tütün modulunu dəyişdirmişdir. Məktəb yaşlı uşaqların Qlobal Sağlamlıq sorğusu (GSHS) ölkələrdə 13-17 yaşlı gənclər arasında xəstəlik və ölüm səbəbləri ilə (tütün daxil olmaqla) əlaqəli olan əsas davranış riskinin və qoruyucu amillərin ölçülməsi və qiymətləndirilməsinə kömək etmək üçün hazırlanmış bir sorğudur. GSHS 2003-cü ildən başlayaraq 104 ölkədə həyata keçirilib və dünyanın 36 ölkəsində təkrar aparılıb.

## SOSİAL, İQTİSADİ VƏ DİGƏR TƏDQİQATLAR

Sosial, iqtisadi və digər tədqiqatlarda tütündən istifadə və tütün tüstüsünə məruz qalma iqtisadi və sosial şərait kontekstində qiymətləndirilə bilər. Daha geniş sosial və iqtisadi sorğulara TQS-nin daxil edilməsi ölkələrin tütündən istifadəyə nəzarət imkanlarını gücləndirmək üçün səmərəli yol olacaqdır.

## MƏKTƏB ƏSASLI SORĞULAR

Bir çox ölkələrdə məktəb əsaslı tədqiqatlar vasitəsilə gənclərə aid sağlamlıq və rifah məsələləri monitorinq edilir. Məktəbdə gəncləri sorğu etmək, onları evdə cavablarına təsir göstərə biləcək digər ailə üzvlərinin yanında sorğu-sual etməkdən fərqli nəticə verir.

# Effektiv monitorinq sistemlərinin xüsusiyyətləri:

**Sadə**

- Sadəlik monitorinq sisteminin düzgün işləməsini təmin etməyə kömək edir və intensiv, bahalı təlim ehtiyacını azaldır. Bu, inkişaf və təlim keçirtmək üçün resusları məhdud olan mühitdə xüsusilə vacibdir.

**Tez uyğunlaşan**

- Monitorinq sistemi meydana çıxan təhlükələr və imkanlar, eləcə də vaxt keçdikcə tətbiq edilə bilən yeni siyasətlərin təsiri barədə məlumatların daxil eedilməsi üçün adaptasiya oluna bilməlidir.

**Etibarlı**

- Nəticələrin ardıcıl formatda toplanmasını təmin etmək üçün protokollar olmalıdır. Bu, elmi məlumatların etibarlılığı üçün vacibdir. Bu da məlumatların toplanması, daxil edilməsi, saxlanması və hesabatda səhvlərin mümkünlüyünü minimuma endirməyə kömək edir.

**Reprezentativ**

- Sorğular ümumi əhalinin reprezentativliyinin əhatə olunması məqsədilə tərtib edilməlidir, belə ki, tütünə nəzarət tədbirləri mümkün qədər çox insanları mühafizə etmək üçün hazırlana bilər.

**Standartlaşdırılmış**

- Standartlaşdırılmış monitorinq və nəzarət vasitələri müxtəlif hakimiyyət orqanlarından və sistemlərdən istifadə edərək, fərqli vaxtlarda toplanmış məlumatları müqayisə etməkdə kömək edir. Bu da fərqli mənbələri bir araya gətirməklə böyük təsvir və tendensiyaların ortaya çıxması üçün vacibdir.

**Dövri (vaxtaşırı)**

- Mütəmadi olaraq müşahidələri təkrarlayın, üsulları və sualları mümkün qədər ardıcıl saxlayın, zamanla müsbət və mənfi dəyişikliklərin əldə edilməsinə və həll olunmasına imkan yaradın.

**Vaxtında**

- Məlumatların toplanması, təhlili və nəticələrin mövcudluğu arasındakı dövriyyə mümkün qədər tez olmalıdır ki, məlumat mövcud olduğu zaman dəqiq olsun.

**Davamlı (dayanıqlı)**

- Monitorinqi hər hansı tütünə nəzarət proqramının tərkib hissəsi kimi qəbul etmək lazımdır və belə investisiyalar həm insan, həm də maliyyə baxımdan qoyulmalıdır. Büdcə ayrılmaları xüsusi olaraq monitorinq və müşahidə üçün yaradılmalıdır və texniki ekspertlər üçün təlim və karyera imkanları prioritet olmalıdır.

**Faydalı**

- Məlumatların yayılması, nəşri və təşviqi planları nəticələrin və məlumatların təhlilinin mümkün qədər tez istifadə oluna bilməsini və əlçatanlığını təmin etməlidir. Bura ictimaiyyətə yayılması və tədqiqat daxildir. Bu, həm də toplanan məlumat göstəricilərinin hələ də onlar üçün faydalı olduğunun müntəzəm olaraq maraqlı tərəflərlə yoxlanılması deməkdir (yəni onlar elmi, təşviqat mövzusudur, ya yox).

## STANDARTLAŞDIRILMIŞ PROTOKOLLAR MONİTORİNQİ TƏKMİLLƏŞDİRİR

Standartlaşdırılmış monitorinq protokolları məlumatların toplanma sürətini və effektivliyini artırır ki, bununla da tütünlə mübarizəni təkmilləşdirən məlumatlar toplanır və istifadə edilir.

ÜST TMÇK-nın 20-ci maddəsi tərəflərə nəzarət fəaliyyətini həyata keçirtməyi və müqayisə oluna bilməsi üçün məlumatları bölüşməyi tövsiyə edir. 20-ci maddə "tütünə nəzarət proqramlarını milli, regional və qlobal sağlamlığa nəzarət proqramlarına inteqrasiya edilməsini, məlumatların müqayisəli olmasını və müvafiq olaraq regional və beynəlxalq səviyyədə təhlil oluna bilməsini" tərəflərə tövsiyə edir.

Standartlaşdırma tütün epidemiyasının regional və qlobal təsvirini əldə etmək üçün faydalıdır. İnformasiya paylaşımını və ölkələr arası müqayisəni maksimuma çatdırmaq üçün standartlaşdırma seçmə və sorğu anketi hazırlanmasından təhlil və hesabata qədər olan nəzarət sisteminin bütün mərhələlərində nəzərə alınmalıdır.

## STANDART SORĞU VƏRƏQƏLƏRİ

Standartlaşdırılmış suallar və sorğu vərəqələri bir çox ölkələr tərəfindən istifadə olunur, çünki onlar bir sıra müxtəlif kontekstlərdə və auditoriyada test edilərək təsdiqlənmiş və spesifik göstəricilərin monitorinqi üçün etibarlı alət kimi tövsiyə edilmişdir. Bu standartlaşdırılmış sorğu protokolları ölkələr tərəfindən əsas məlumatları toplamaq üçün minimal xərclərlə qəbul edilə və uyğunlaşdırıla bilər. Ən çox ümumi mənbə TQS daxil olan GTSS-dir.

## QLOBAL TÜTÜNƏ NƏZARƏT SİSTEMİ (GTSS)

GTSS protokolları fərqli demoqrafik qruplar tərəfindən tütündən istifadənin müxtəlif aspektlərini əhatə edir. Sorğu protokollarının nümunələrinə məktəb əsaslı GYTS və ev təsərrüfatları əsaslı GATS tədqiqatları daxildir. Bu sorğu alətləri standart seçmə üsullarından, əsas sorğu anketindən və ümumi sahə və məlumatların idarə edilməsi prosedurlarından istifadə edir. Əhaliyə əsaslanan sorğu aparmaq üçün yetərli imkanları olmayan ölkələr GTSS tərəfdaşlarından texniki yardım ala bilərlər.

## TÜTÜNLƏ ƏLAQƏLİ SORĞU SUALLARI (TQS)

TQS, GATS-də olan 22 əsas sual toplumudur, həmçinin ona tütündən istifadə və əsas tütünə nəzarət tədbirləri ilə bağlı ÜST TMÇK tərəfindən müəyyən edilmiş bir neçə standart suallar daxildir. Bu suallar müstəqil bir modul kimi istifadə edilə bilər və ya hər hansı bir kombinasiyada digər tədqiqatlara daxil edilə bilər. Hazırda 73 ölkənin milli sorğuları TQS-yə inteqrasiya edilmişdir. ÜST-nin STEPS tədqiqatı TQS alətini özündə əhatə edir və ölkələrə bütün TQS göstəricilərini əks etdirməyə imkan verir.

## MONİTORİNQ TƏDBİRLƏ NƏTİCƏLƏNMƏLİDİR

Faktlar nəticəyə çatmaq üçün bir vasitədir. Onları təhlil etmək və nəticələri tez tərtib edib yaymaq, hökumət və digər maraqlı tərəflərin onlardan istifadə etməsini və tütünə nəzarət siyasətini inkişaf etdirə bilər.

Məlumatlar həmçinin sağlamlıq sektorundan kənara çıxa bilər. Dayanıqlı İnkişaf Məqsədləri (DİM) insan inkişafına tütünün daha geniş təsirlərini vurğulayır və tütünə nəzarət ətraf mühitin qorunması və gender bərabərliyi kimi digər sahələrdə də məlumatlardan istifadə edərək DİM-in dəstəklənməsinə yönəldilməlidir. Bununla yanaşı, tütünə nəzarət proqramlarının nəticələrinin bu sektorlar arasında bölüşdürülməsi tütünlə mübarizə siyasətinin effektivliyini artira bilər, məlumatlar və tədbirlər bir-birini daim gücləndirməklə effektiv məlumat dövriyyəsi yarada bilər.

## MONİTORİNQ CƏHDLƏRİNİ ARTIRMAQ

Monitorinqin məlum faydalarına və əsas monitorinq sistemlərinin tətbiqinin nisbi sadəliyinə baxmayaraq, bir çox ölkənin daha geniş modelə keçməsinə mane olan bir sıra çətinlikləri mövcuddur. Bunlar, əsasən potensial ətrafında toplanır: kifayət qədər texniki və insan resurslarını cəmləşdirmək, effektiv tədbirlər üçün tələb olunan məlumat səviyyəsini təhlil və istifadə etmək. Ancaq bu maneə çox vaxt ölkədə mövcud olan əsas resursların strateji paylaşımı ilə aradan qaldırıla bilər.

## TEXNİKİ POTENSİAL

Tütündən istifadənin və qarşısının alınması siyasətinin monitorinqi üçün ölkələrin kifayət qədər texniki potensialı və texniki cəhətdən ixtisaslı kadrlara malik olmadığı fikirləri adətən qeyri-dəqiqdir. Tütünə nəzarətin texniki potensialı digər davranış risk faktoru və ya risk faktorlarının yumşaldılması siyasətinin monitorinq imkanlarından əhəmiyyətli dərəcədə fərqlənmir və hər cür monitorinq və nəzarətdə təcrübəli olan heyət bir neçə əlavə resurslar vasitəsi ilə tütün üzrə xüsusi tədbirlər sahəsində təlim keçə bilər. Bununla yanaşı, ixtisaslı müşahidə heyəti səhiyyə qurumunun müxtəlif sektorları arasında bölüşdürülə bilər və nəzarət işlərində digər dövlət orqanları, elmi təşkilatlar və ya QHT-lərlə əməkdaşlıq edə bilər.

## MULTİSEKTORAL ÖHDƏLİK

Monitorinqə multisektoral yanaşmalar ölkələrə məhdud resursları səmərəli istifadə etməyə kömək edə bilər, bu da daha əhatəli və faydalı məlumatlarla təmin edə bilər. Məsələn, bir çox ölkələrdə GYTS Səhiyyə Nazirliyi və Təhsil Nazirliyi tərəfindən birgə aparılır. Hər bir ölkədə artıq yerli bacarıq və təcrübə ilə müşayiət edilən nəzarət sisteminin bir neçə forması mövcuddur. Ölkə daxilində elmi tədqiqat institutları çox vaxt siyasətçilərin maraq göstərəcəyi mövzuları təhlil edir və ya məlumatları toplayırlar, lakin bu işin bölüşdürülməsi tendensiyası onların bu informasiyanı bölüşmək qabiliyyətinə mane olur.

Digər səyləri təkrarlayan yeni sistemlər qurmaq əvəzinə, monitorinq yükünün daha effektiv bölüşdürülməsi monitoriq sitemləri qismən tətbiq edilən ölkələrdə digər qurumların potensialını istifadə etməyə və boşluqları aradan qaldırmaq üçün mövcud resursları yönəltməyə kömək edər. Tam GATS və ya GYTS-i idarə etmək üçün kifayət qədər imkan olmadığı halda TQS-nin əhali arasında aparılan digər sorğulara daxil edilməsi göstərdi ki, ölkələr bu yanaşma ilə öz nəzarət proqramlarını gücləndirə bilər. Monitorinqi həyata keçirən bir çox maraqlı tərəfləri idarə etmək və əlaqələndirmək üçün ölkənin mərkəzi statistika orqanları tərəfindən nəzarət aparıla bilər.

## MƏLUMAT MÜBADİLƏSİ

Məlumat toplayan orqanlar özlərini məlumat sahibi deyil, "məlumatı saxlayan" kimi hesab etməlidirlər. Yaxşı olardı ki, məlumat toplayan qurum məlumatların təhlili, hazırlanması və yayılması ilə məşğul olan yeganə orqan olmasın. Məlumatı saxlayanın vəzifəsi, məlumatların tamlığı və anonimliyini qorunmaqla, istifadə olunmasını və təkrar istifadə edilməsini təşviq etməklə məlumatların istifadəsini asanlaşdırmaqdır. Hər bir sorğu böyük həcmdə maliyyə və insan resursları tələb etdiyindən, tütündən istifadə və tütün tüstüsünə məruz qalma ilə mübarizə üçün bu məlumatlardan daha çox tədqiqatçılar və siyasətçilərin istifadə edə bilməsi məqsədəuyğun olardı.

## MƏLUMATLARIN İSTİFADƏ EDİLMƏSİ

Tütünə nəzarət proqramları lazımi texniki işi yerinə yetirən və məlumatlarını siyasətçilərlə bölüşdürən təcrübəli məlumat analitiklərindən istifadə etməlidir. Bununla yanaşı, bu öhdəliyi icra etmək mümkün olmadıqda kifayət qədər məlumat analitikası qabiliyyətinə malik olan digər təşkilatlarla əməkdaşlıq etmək olar. Tütünə nəzarət proqramı daxilində belə təcrübə olmadığı təqdirdə milli statistika orqanları və ya elmi təşkilatlar lazımi təcrübə ilə təmin edə bilər. Hökumətlər bu əhəmiyyətli analitik işini nəzərdən qaçırtsalar, tütün sənayesi yanlış tədqiqatlar və yanlış məlumatlar ilə bu boşluğu dolduracaq.

## KOMMUNİKASİYA STRATEGİYASI

Effektiv kommunikasiya strategiyası tərəfindən dəstəklənmirsə, hətta ən yaxşı tütünə nəzarət proqramı çətinliklə üzləşə bilər. Yaxşı hazırlanmış kommunikasiya strategiyası ictimaiyyəti sorğulara qatılmağın vacibliyinə inandırmağa kömək edir və tədqiqat nəticələrinin tütünə nəzarət siyasətinə maksimum təsir göstərməsi və davranış dəyişikliyinin sürətləndirilməsi üçün istifadə olunmasını təmin edə bilər. Daha geniş mənada, ictimaiyyət tütünlə mübarizə aparanlarla tütün sənayesi arasında olan mübarizəni əsasən kütləvi informasiya vasitələrindən istifadə edərək izləyirlər. Hansı tərəfin daha yaxşı kommunikasiya strategiyası varsa, onun öz arqumentləri ilə ictimaiyyəti inandırmaq üçün daha çox üstünlüyü vardır. İctimaiyyətin məlumatlılığını artırmaq üçün nəzarət ilə əldə edilən məlumatlar həmişə media vasitəsilə dərc olunmalıdır, lakin müxtəlif auditoriya tərəfindən anlayışın maksimum səviyyəyə çatmasına imkan verən formatda qurulmalıdır. Faktlardan və elmi ədəbiyyatlardan güclü və inandırıcı məlumatları çıxartmaq üçün kommunikasiya mütəxəssisləri cəlb edilməlidir. İctimaiyyətin məlumat və sübutlarla tanış olması nəticəsində yaranan gözə çarpan dəyişikliklər əsl müşahidə işinin həyata keçirilməsinin effektivliyini artıracaqdır.

## MALİYYƏLƏŞDİRMƏ

Tək bir sorğunun maliyyələşdirilməsi bir sıra sorğular üçün uzunmüddətli maliyyələşdirmənin planlaşdırılmasından daha sadə olsa belə, effektiv bir investisiya deyildir. Araşdırmaların potensialının artırılması və infrastruktur kimi uzunmüddətli fəaliyyətlərə sərf olunan resurslar, planlaşdırılan tədqiqatlar seriyası olduqda daha yaxşı fayda gətirəcəkdir. Maliyyələşdirmə yalnız məlumatların toplanması üçün deyil, onların təhlili, yayılması və qiymətləndirilməsi üçün də vacibdir, çünki nəticədə toplanan məlumatlar tütünə nəzarət siyasətinin dəyişməsinə maksimum təsir üçün istifadə olunacaqdır.

## SİYASİ ÖHDƏLİK

Tütün epidemiyasına nəzarət etmək məqsədilə yüksək səviyyəli siyasi öhdəlik hələ də bir çox ölkələrdə yoxdur. Beynəlxalq cəmiyyətdə tütünə nəzarət tədbirlərinin nüfuzunun artırmağında əhəmiyyətli irəliləyişlər baş vermişdir. Buna, əsasən, ÜST TMÇK-nın həyata keçirilməsinin DİM-lərdə xüsusi məqsəd kimi (Məqsəd 3A) daxil edilməsi sayəsində nail olunmuşdur.

Beynəlxalq cəmiyyətin ÜST TMÇK-nın tətbiq etməsində göstərdiyi yüksək səviyyəli öhdəliyi milli siyasətçilərə tütünə nəzarət tədbirlərinin prioritetləşdirilməsini asanlaşdırır və xüsusilə də bütün ölkələr tərəfindən tütün epidemiyasının effektiv monitorinqinə şərait yaradılması üçün kifayət qədər maliyyə və resurslar ayırır.

# İSTİNAD EDİLMİŞ MƏNBƏLƏR


1. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST)
   www.euro.who.int/en/health-topics/disease-prevention/tobacco
2. Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası
   www.tobaccocontrol.az/upload/File/catalog/11-2016/catalog-6-file.pdf
3. Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyasının maddələrinin həyata keçirilməsinin Rəhbər Prinsipləri
   www.tobaccocontrol.az/upload/File/catalog/11-2018/catalog-66-file.pdf
4. MPOWER – ÜST-nin tütünlə mübarizə üzrə tədbirlər kompleksi
   www.tobaccocontrol.az/upload/File/catalog/12-2016/catalog-19-file.pdf
5. Gənclər arasında tütündən istifadənin Qlobal Tədqiqatı (GYTS)
   www.tobaccocontrol.az/upload/File/catalog/12-2018/catalog-42-file.pdf
6. ÜST-nin STEPS metodologiyası əsasında qeyri-infeksion xəstəliklərin (QİX) risk amillərinin öyrənilməsinə dair aparılan tədqiqat
   www.isim.az/az/news-view/1057-STEPS-2017-sorgusu-uzre-sahe-ishleri-basha-chatdi
7. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu
   www.tobaccocontrol.az/upload/File/catalog/02-2018/catalog-53-file.pdf
8. Azərbaycan Respublikasının tütünlə əlaqəli qanunvericiliyi
   www.tobaccocontrol.az/az/judgement